**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**
**08 dekabr 2023-cü il tarixli**

# QƏRARI

"Birdəfəlik dissertasiya şuralarının yaradılması məqsədilə qaldırılan vəsatətə əlavə edilməli olan sənədlərin siyahısı" təsdiq edilsin.

## Birdəfəlik dissertasiya şuralarının yaradılmasına dair vəsatətə əlavə edilməli olan sənədlərin siyahısı

*Şura üzvlərinə dair:*

1. "Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat"a Əlavə 1.1. və 1.1.1. formaları;
2. Üzv olmaq üçün razılıq məktubu;
3. Şəxsiyyət vəsiqəsinin surəti;
4. Elmi dərəcə haqqında diplomların surəti (elmi dərəcələr fərqli elm sahəsi və ixtisas üzrə olduğu halda hər iki diplomun surəti);
5. Elmi ad haqqında attestatların surəti (elmi adlar fərqli elm sahəsi və ixtisas üzrə olduğu halda hər iki attestatın surəti);
6. AMEA-nın həqiqi və ya müxbir üzvlüyü haqqında sənədin surəti;
7. Avtoreferatın üz qabığının surəti.

*Dissertasiya müdafiəsinin təşkili məqsədilə barəsində vəsatət qaldırılan iddiaçıya dair:*

1. Şəxsiyyət vəsiqəsinin surəti;
2. Əmək kitabçasının təsdiq olunmuş surəti;
3. İddiaçının şəxsi məlumat vərəqi;
4. Mövzunun təsdiqi barədə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuralarının və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının qərarlarının surəti;
5. Elmi əsərlərin təsdiq olunmuş siyahısı;
6. Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc olunmuş məqalələrinin surəti;
7. Xarici ölkələrdə dərc olunmuş konfrans materiallarının surəti;
8. Elmlər doktoru iddiaçıları üçün fəlsəfə doktoru avtoreferatının üz qabığının surəti.

**Qeyd:**

**Əvvəllər dissertasiya şurasının üzvü olmuş və bu Qərarla müəyyən edilən sənədləri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilmiş üzvlərin məlumatlarında hər hansı dəyişikliklər olmadıqda, həmin üzvlərə münasibətdə sənədlərin yenidən təqdim edilməsi zəruri hesab edilmir.**